# Müasir təhsilin məzmununun formalaşdırılmasının aktual problemləri

**İntiqam Cəbrayılov**

**Müəllif:**
Pedaqogika üzrə elmlər doktoru, Pedaqogika və Psixologiya Problemləri üzrə Elmi Şuranın sədri, ARTİ-nin Təhsil nəzəriyyəsi şöbəsinin müdiri.
E-mail: intiqamcebrayilov@mail.ru

**Annotasiya.** Tədqiqatda paradiqma, o cümlədən təhsil paradiqmaları anlayışlarının mahiyyəti izah olunur. Eyni zamanda cəmiyyətin inkişaf tendensiyalarına uyğun olaraq təhsil paradiqmalarının dəyişməsi zəruriliyi izah edilir, onun təhsilin məzmun probleminin həllinə təsiri əsaslandırılır. Tədqiqat göstərdi ki, müasir dövrdə təhsilin məzmununun yeniləşməsi cəmiyyətin özünün inkişafı ilə bilavasitə bağlıdır. Bu gün səriştə əsaslı təhsilin məzmununun formalaşdırılması və inkişaf etdirilməsi vacibdir. Məhz belə bir şəraitdə müasir dövrün tələblərinə cavab verən şəxsiyyət-vətəndaşın yetişdirilməsi imkanları genişlənir. Təcrübə də göstərir ki, məhz belə şəxsiyyətlərdə vətəndaş təfəkkürü, müstəqillik, demokratiklik, yaradıcılıq, tədqiqatçılıq qabiliyyətləri daha çox inkişaf edir. Bunlar həm də təhsilin məzmununda əksini tapmış səriştə və dəyərlərlə bağlıdır. Təhsilin məzmununun ana xəttində təhsilalanlarda humanist fikir və ideyaların aşılanması, onlarda humanist düşüncə sisteminin formalaşdırılması dayanmalıdır. Humanist düşüncə isə humanist dəyərlər əsasında, bu dəyərlərə xüsusi əhəmiyyət verilməsi, onun şəxsiyyətin yetişdirilməsinə təsiri nəticəsində formalaşır. Tədqiqatda problem baxımından dünya təcrübəsinə də diqqət yetirilmiş, müxtəlif ölkələrdə təhsilalanlarda formalaşdırılması nəzərdə tutulan səriştələrdən də bəhs olunmuş və onların fərqli xüsusiyyətləri göstərilmişdir. Məqalədə XXI yüzilliyin əvvəllərində Azərbaycanda yeni təhsil proqramlarının – kurikulumların hazırlanması və tətbiqi məsələlərinə xüsusi diqqət yetirilir. Bu dövrdə ölkə təhsilinin məzmununun nəzəri və praktik baxımdan yenilənməsində yeni təhsil proqramlarının mühüm rol oynaması faktı ön plana çəkilir. Ənənəvi yanaşmadan fərqli olaraq müasir yanaşmada təhsilin məzmununun bir neçə istiqamətdə yenilənməsi elmi cəhətdən əsaslandırılır. Eyni zamanda göstərilir ki, cəmiyyətin inkişaf dinamikası hər bir konseptual sənədin məzmununun yeniləşməsini zəruriləşdirir. Bu baxımdan, müasir dövrdə şəxsiyyətyönlülük, mədəniyyətyönlülük, humanistlik kimi başlıca paradiqmaların təhsilin məzmununda əks olunmasının yetkin şəxsiyyətin formalaşdırılmasına güclü təsir göstərdiyini qeyd edə bilərik.

**Açar sözlər:**
Təhsil, paradiqma, humanist, məzmun, metod, sistem.

**DOI:** 10.32906/AJES/683.2018.02.19
**Məqaləyə istinad:** Cəbrayılov İ. (2018) *Müasir təhsilin məzmununun formalaşdırılmasının aktual problemləri.* «Azərbaycan məktəbi». № 3 (684), səh. 107–118

**Məqalə tarixçəsi**
Göndərilib: 07.08.2018; Qəbul edilib: 17.09.2018

# Actual problems of formation of the content of the modern education

**Intigam Jabrayilov**

**Author:**
Intigam Jabrayilov, Prof.Dr., Scientific Research Coordination Council of the Republic of Azerbaijan, Chair of the Scientific Council on Pedagogy and Psychology Problems, Chair of Department of Educational Theory of AREI. E-mail: intiqamcebrayilov@mail.ru

**Keywords:**
Education, paradigm, humanist, content, method, system.

**Abstract.** The study reveals the essence of the concepts of the paradigm, including the paradigm of education. At the same time, the need to change education paradigms in accordance with the development trends of society is emphasized; their influence on the solution of the education problem is justified. The study showed that in the modern period, the update of the content of education is directly related to the development of the society itself. Today it is important to formulate and develop the content of the skills-based education. Under these circumstances, opportunities to raise an identity-citizen that meets the needs of modern times are expanding. Practice also shows that in such people civilian thinking, self-reliance, democracy, creativity and research capabilities are developing more. They also relate to the skills and values reflected in the educational content. The basis of the content line of education should be the inculcation of humanistic thoughts, the ideas of students and the formation of a humanistic system in them. Humanistic thinking occurs as a consequence of the effect on personality cultivation attached special importance to these values, based on human values. The research focuses on the problem of world practice and the skills that need to be developed in different countries and their distinctive features. The article focuses on the preparation and implementation of curriculum for new educational programs in Azerbaijan at the beginning of the XXI century. In this period, the fact that the new educational programs play an important role in theoretical and practical aspects of the content of country education is highlighted. In contrast to the traditional approach, modernization of education content in several ways is scientifically justified. It also shows that the dynamics of society's development necessitates the renewal of the content of each conceptual document. From this point of view, the reflection of major paradigms such as personality orientation, cultural orientation, humanism in the context of modern education has a strong impact on the formation of a mature personality.

**DOI:** 10.32906/AJES/683.2018.02.19

**To cite this article:** Jabrayilov I. (2018) *Actual problems of formation of the content of the modern education.* Azerbaijan Journal of Educational Studies. Vol. 684, Issue III, pp. 107–118

**Article history**
Received: 07.08.2018; Accepted: 17.09.2018

## Giriş

Müasir dövrdə cəmiyyət həyatında köklü dəyişikliklərin baş verməsi, ölkəmizdə hüquqi dövlətin, vətəndaş cəmiyyətinin inkişafı, Azərbaycanın dünya ölkələri ilə əlaqələrinin daha da genişlənməsi və möhkəmlənməsi təhsil sahəsində məqsədyönlü islahatların bundan sonra da davamlı olmasını tələb edir. Bu gün ənənəvi sistemdən fərqli olaraq yeni təhsil sisteminin qurulması təhsil paradiqmalarının dəyişməsi, təhsilin məzmununun yeniləşməsi ilə müşayiət olunur.

Araşdırmalar göstərir ki, təhsilin məzmunu problemi cəmiyyətin inkişafının bütün mərhələlərində maraq doğurmuş və tədqiqat obyektinə çevrilmişdir. Belə ki, zaman keçdikcə yeni məzmunun formalaşdırılması ehtiyacı cəmiyyətin tələblərindən irəli gəlməklə bir sıra ciddi problemlərin həllini şərtləndirir. Bu baxımdan təhsilin məzmun məsələlərinin müəyyənləşdirilməsi bilavasitə paradiqmaların öyrənilməsi və tədqiqi ilə bağlıdır.

## Problemin aktuallığı

Problemin mahiyyətinə aydınlıq gətirmək üçün, ilk növbədə, paradiqma anlayışı ilə bağlı bəzi mülahizələrimizi bildirmək istəyirik. Elmi ədəbiyyatda bu anlayışa yanaşmada fərqli cəhətlər özünü göstərsə də, ümumi mahiyyət, əsasən, eynidir. Bir neçə nümunəyə diqqət yetirək: Paradiqma yunan dilindən *paradeigma* sözündəndir, mənası, nümunə, model deməkdir. Məsələn, ictimai münasibətlərin nümunəsi, tipi, modeli. Fəlsəfə və sosiologiyada paradiqma problemin qoyuluşu və onların həlli modeli baxımından elmin inkişafının zamana görə dəyişən və müəyyən mərhələ üçün xarakterik olan konseptual sxemi kimi izah edilir. Praktikada paradiqma sübut, dəlil, müqayisə üçün tarixdən götürülmüş nümunə kimi başa düşülür [Бим-Бад Б. 2002].

Paradiqma elmi ictimaiyyətin əksəriyyəti tərəfindən qəbul edilmiş fundamental elmi quruculuq, elmi istiqamət, elmi təşkil yolu, elmi təsəvvür və terminlər haqqında vahid, ümumi bir fikri ifadə edən anlayışdır. Paradiqma elmin və elmi yaradıcılığın inkişafında varisliyi təmin edir. Mütləq, elmi, dövlət, şəxsi (fərdi, subyektiv) və ümumi qəbul edilmiş paradiqmalar da vardır.Ümumi paradiqmaya qərar qəbulunun nümunəvi metodu, insanların əksəriyyəti tərəfindən qəbul olunmuş dünya modeli, yaxud onun ayrı-ayrı hissələrinin, bilik, həyat və fəaliyyət sahələrinin modelləri aiddir. Şəxsi paradiqma qərar qəbulunun mahiyyəti metodu, konkret insanın mental metodu, onun baxışlarıdır.[1]

Bəzi fəlsəfi ədəbiyyatda paradiqma sözünün mənası real və mənəvi dünya münasibətlərini xarakterizə edən bir anlayış kimi qəbul edilir [Философский энсиклопедический словарь. 2003]. Pedaqoq alimlərin təhsil paradiqmasına yanaşmaları aşağıdakı kimidir:

Paradiqma təhsil sahəsində problemlərin qoyuluşu və onların həlli modelidir [Шмырова Н.А., Губанова М.И., Крецан З.В., Кемерево, 2002].

Tədqiqatçı, pedaqoq-alim V.P.Bitinasın yanaşmasına görə təhsil paradiqması təhsilin məzmunu, təşkili formaları və təlim-tərbiyə üsullarının seçilməsidir.[2]

Elmi araşdırmalara əsasən qeyd etmək olar ki, paradiqma gerçəkliyin mövcud əlamətlərini, anlayışlar sistemini əks etdirən ciddi bir nəzəriyyəni əks etdirir. Təhsil paradiqması isə təhsilin məzmunu, təşkili formaları və təlim-tərbiyə metodlarının müəyyənləşdirilməsi, tətbiqi üçün zəruri olan və pedaqoji ictimaiyyət tərəfindən qəbul olunmuş, müəyyən bir dövr üçün elmi tədqiqatların əsasında dayanan mühüm anlayışlar, müddəa və ideyalar sistemi kimi izah edilə bilər. Bu baxımdan, təhsil paradiqmalarını iki hissəyə ayırmaq olar:

1) gələcəyə istiqamətlənmiş (mütərəqqi) paradiqmalar; 2) keçmişlə bağlı (klassik) paradiqmalar.

[1] www.didacts.ru

[2] www.social_pedagogy.academic.ru/463/%D0%9F%

Sxem 1. **Yeni və klassik paradiqmalar üçün ümumi meyarlar**

| **Yeni və klassik paradiqmalar üçün ümumi meyarlar** | | | | | | |
|---|---|---|---|---|---|---|
| təhsilin əsas məqsədi | insan | bilik | təhsil | şagirdlər | təhsilverən və təhsilalanların münasibətləri | təhsilalanların fəaliyyət növü |

«Klassik» termini təhsil sahəsində ənənəviliyi, uzun müddət davam edən paradiqmanı ifadə edir. «Mütərəqqi» anlayışı isə fərqli məzmun və yanaşmaları nəzərdə tutur. Təhsilin yeni və klassik paradiqmaları arasındakı fərqli cəhətləri müvafiq meyarları əsas götürməklə izah etmək olar.

Yeni və klassik paradiqmalar üçün ümumi meyarları aşağıdakı şəkildə ifadə etmək məqsədəuyğundur:

1) təhsilin əsas məqsədi; 2) insan; 3) bilik; 4) təhsil; 5) şagirdlər; 6) təhsilverən və təhsilalanların münasibətləri; 7) təhsilalanların fəaliyyət növü (Sxem 1).

Bu meyarlara uyğun klassik təhsil paradiqmaları bunlardır:

1) böyüməkdə olan nəslin həyata və əməyə hazırlanması; 2) sadə sistem; 3) daha çox keçmişə yönəlik – yaddaş məktəbi; 4) şagirdlərə məlum bilik nümunələrinin, bacarıq və vərdişlərin ötürülməsi; 5) öyrədilənlər – pedaqoji təsir obyekti; 6) müəllim və şagirdlərin monoloji, subyekt-obyekt münasibətləri; 7) öyrənənlərin reproduktiv fəaliyyəti (yalnız suallara cavab vermək).

Təhsilin yeni paradiqmaları isə aşağıdakı şəkildə göstərilə bilər:

1) şəxsiyyətin özünütəyini və özünüreallaşdırması üçün şəraitin yaradılması; 2) mürəkkəb sistem; 3)daha çox gələcəyə yönəlik – təfəkkür məktəbi; 4) maddi, sosial və mənəvi mədəniyyət dünyasının üzvü kimi insanın özünün dünya obrazını yaratması; 5) öyrənənlər-idrak fəallığının subyekti; 6) təhsilalan və təhsilverənlərin dialoji, subyekt-subyekt münasibətləri; 7) təhsilalanların fəal, yaradıcı fəaliyyəti.

Qeyd etdiyimiz meyarlar əsasında klassik və müasir təhsil paradiqmalarının fərqli cəhətlərini aydın görmək olur. Məsələn, hər iki paradiqma – həm klassik, həm də yeni paradiqma üçün əsas meyarlardan biri bilikdir (3-cü maddə). Lakin bu meyara uyğun klassik paradiqma yaddaş məktəbi, yeni paradiqma isə təfəkkür məktəbidir. Yaxud öyrənənlər klasik paradiqmaya görə əgər pedaqoji təsir obyekti hesab edilirdisə, yeni təhsil paradiqmasına görə idrak fəallığının subyekti sayılırlar. Paradiqmaları fərqləndirən cəhətlərdən biri meyar kimi müəyyənləşdirilmiş təhsilin əsas məqsədinə yanaşma və baxışların fərqliliyində özünü göstərir. Belə ki, klassik paradiqmaya görə böyüməkdə olan nəslin həyata və əməyə hazırlanması klassik təhsil paradiqmasının komponentidir. Həmin meyara (təhsilin əsas məqsədi) uyğun yeni təhsil paradiqmasında isə şəxsiyyətin özünütəyini və özünüreallaşdırması üçün şəraitin yaradılması ideyası əsas götürülür.

Araşdırmalar göstərir ki, təhsilin inkişaf tarixində müxtəlif paradiqmalar olmuşdur. Daha çox aşağıdakı paradiqmaların adı çəkilir:

1) ənənəvi-mühafizəkar (konservativ) (bilik paradiqması); 2) rasionalist (biheviorist, davranış); 3) fenomenoloji (humanist); 4) texnokratik; 5) qeyri-institusional; 6) humanitar; 7) «kəşflər yolu ilə təlim»; 8) ezoterik[3] [Арасланова А. А., 2010; Кукушин В.С.]. (Sxem 2).

Bu paradiqmalar təhsilin məqsədinə, eyni zamanda, böyüyən nəsillərin həyata hazırlanması, onlarda ümumi və peşə mədəniyyətinin formalaşdırılması və digər məsələlərə yanaşmaya görə bir-birindən fərqlənir.

[3] www.eusi.ru/lib/kukushin_obsie/2.php

Sxem 2. **Fərqli yanaşma baxımından təhsilin tarixi paradiqmaları**

| Fərqli yanaşma baxımından təhsilin tarixi paradiqmaları | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| ənənəvi-mühafizəkar (konservativ) (bilik paradiqması) | rasionalist (biheviorist, davranış) | fenomenoloji (humanist) | texnokratik | qeyri-institusional | humanitar | «kəşflər yolu ilə təlim» | ezoterik |

İlk növbədə, bilik paradiqması anlayışına münasibət bildirmək istəyirik. Bilik paradiqmasının başlıca məqsədi bəşər sivilizasiyasının mədəni irsinin mövcud elementlərini nəsildən-nəslə ötürməkdir. Bu, tarixən sınaqdan çıxmış, özünü təsdiqləmiş bilik, bacarıq və vərdişlər, eyni zamanda mənəvi ideallar və həyati dəyərlərdir. Bilik paradiqması daha çox akademik istiqamət daşıyır, məktəbin həyatla əlaqəsini lazımi səviyyədə nəzərə almır.

Rasionalist (biheviorist, davranış) paradiqma bilik, bacarıq və vərdişlərin mənimsənilməsi və mövcud cəmiyyətdə, konkret şəraitdə gənc nəslə praktik tətbiqini nəzərdə tutur. Bu yanaşmaya görə təhsil paradiqmaları əsasən davranış terminləri üzərində hazırlanır. Bu paradiqmaya görə məktəb fabrik, şagirdlər isə xammal kimi görünür. Xammal isə istehsal üçün vacib şərtlərdən biridir. Rasionalist (biheviorist, davranış) paradiqmaya görə məktəbin məqsədi şagirdlərdə sosial normalara, tələblərə və Qərb mədəniyyətinin gözləntilərinə uyğun gələn davranış modelinin formalaşdırılmasıdır. Öyrətmə, treninq, test nəzarəti və tənzimləmə (düzəlişlər) rasionalist təlimin əsas metodlarındandır.

Təlimin ənənəvi və rasionalist modellərində çatışmazlıq onların humanist istiqamətinin zəif olmasıdır. Bu modellərdə təhsilalanlara yalnız pedaqoji təsir obyekti kimi baxılır. Onlara həyat subyekti, azad şəxsiyyət, özünüinkişafa, özünütəkmilləşdirməyə qadir insan kimi yanaşılmır. Təhsilin rasionalist modeli yaradıcılıq, müstəqillik, məsuliyyətlilik və fərdiliyə şərait yaratmır.

Humanist (fenomenoloji) təhsil paradiqması. Bu paradiqma həm şagirdləri, həm də müəllimləri təhsil prosesinin bərabərhüquqlu subyektləri kimi nəzərdə tutur. Bu zaman təlimin başlıca məqsədində şagirdlərin fərdi psixoloji xüsusiyyətlərinin nəzərə alınması, təhsilalanın inkişafı, o cümlədən özünüinkişafı üçün şəraitin yaradılması, öz təbii potensialını reallaşdırmaq imkanları üçün onlara seçim azadlığının verilməsi kimi məsələlər ön plana çəkilir. Humanist paradiqmada şagirdlərin, eyni zamanda müəllimlərin də azad, sərbəst fəaliyyəti, yaradıcılıq axtarışları mühüm əhəmiyyət kəsb edir. Bu paradiqma şəxsiyyətin yaradıcı, mənəvi inkişafını, şəxsiyyətlərarası ünsiyyəti, dialoqu, insanın özünütəhsilini, özünütəkmilləşdirməsini vacib sayır.

Texnokratik paradiqma. Bu paradiqma böyüyən nəsillərə təcrübəni təkmilləşdirmək üçün dəqiq elmlərə aid bilikləri mənimsətməyi nəzərdə tutur. Texnokratik paradiqmaya görə bilik güc deməkdir, insanın dəyəri də onun idrak imkanları ilə müəyyən olunmalıdır. Bu yanaşmaya görə insan özü üçün deyil, nadir bir fərd, mütəxəssis, bilik və bacarıqların daşıyıcısı kimi dəyərdir. Bu paradiqmaya görə xüsusilə mühəndislik təhsilində təhsilalanın şəxsiyyətinin formalaşmasına deyil, mütəxəssis kimi peşəkar hazırlığına, peşə keyfiyyətlərinin formalaşdırılmasına əhəmiyyət verilir.

Qeyri-institusional paradiqma. Bu paradiqma qeyri-ənənəvi sosial institutlar vasitəsilə təhsilin (o cümlədən ümumtəhsil və ali məktəblərdə) təşkilini nəzərdə tutur. Belə ki, bu paradiqmaya görə insan internet şəbəkələrinin köməyi ilə «açıq məktəb»lərdə təhsil ala, distant təlim keçməklə müəyyən biliklərə, ixtisaslara yiyələnə bilər. Bu yolun, bu paradiqmanın mənfi tərəflərindən biri

budur ki, təhsilalanla öyrədən-müəllim arasında əlaqə – birbaşa kontakt yaranmır. Bu isə öyrənənin şəxsiyyətinin inkişafını ləngidir. Təcrübə göstərir ki, öyrənən-öyrədən münasibətlərini heç bir texnologiya əvəz edə bilməz. Ona görə də həmişə yüksək ixtisaslı elmi-pedaqoji kadr hazırlığına, onların təhsil sistemində aparıcı rol oynamasına ehtiyac vardır.

Humanitar paradiqma. Bu paradiqmanın əsasında-mərkəzində öyrənənlər deyil, hazır bilikləri mənimsəmiş, həqiqəti dərk edən insan dayanır. Lakin məlumdur ki, birmənalı-mütləq həqiqət yoxdur.Əsas məsələ həqiqətin özü yox, ona münasibətin vacibliyidir. Bununla da subyekt-subyekt əlaqələri və pedaqoji proses iştirakçılarının münasibətləri əməkdaşlıq, dialoq, öz mövqeyinin müstəqil müəyyənləşdirilməsi məsuliyyəti və mənəvi dəyərlərin dərki prinsipləri əsasında qurulur.

«Kəşflər yolu ilə təlim» paradiqması. Bu paradiqmaya görə öyrənənlər dünyanı dərk etməli, öz kəşfləri vasitəsilə biliklərini tətbiq etməlidirlər. Bundan ötrü şagirdlərin idrak qüvvəsi, inkişafa xidmət edən məhsuldar təfəkkürü olmalıdır. Yaradıcı təlim hazır biliklərin mənimsənilməsindən onunla fərqlənir ki, o, müəyyən problemin qiymətləndirilməsi əsasında uyğun ümumiləşdirmələri formalaşdırır və öyrənilən material çərçivəsində çıxarılan qanunauyğunluqları müəyyən edir.

Ezoterik paradiqma. Bu paradiqma insanın xarici aləmlə (dünya ilə) ən yüksək səviyyədə əlaqələrini əks etdirir. Bu paradiqmanın mahiyyəti həqiqətə əbədi və dəyişməz münasibətlə izah edilir. Ezoterik paradiqmaya görə pedaqoji fəaliyyətin əsas mənası kosmosla ünsiyyət, kosmik əlaqələrin təmin olunması baxımından insanın təbii qüvvələrinin azadlığı ilə bağlıdır.İnsanın Yer planeti ilə, kosmosla, cəmiyyətlə, özünün özü ilə harmonik münasibətlərini yaratmaq üçün bütövlükdə qarşılıqlı əlaqələr sistemini, insanın qarşılıqlı əlaqələrinin mahiyyətini öyrənmək tələb olunur.

Təcrübə göstərir ki, müasir dövrdə daha çox iki paradiqmaya: formalaşdırıcı (ənənəvi) və şəxsiyyətyönlü (humanist) paradiqmalara üstünlük verilir. Formalaşdırıcı paradiqmanın təhsilin məzmunu və texnologiyalara yanaşma baxımından özünün də iki növü vardır: 1) bilikyönlü; 2) fəaliyyətyönlü paradiqma.

Təhsilə və onun təşkilinə yanaşma baxımından müasir paradiqmanın əsas mahiyyəti odur ki, bu gün təhsil insan üçün təkcə müəyyən bilik, bacarıq və vərdişlərin həcmi deyil, həm də fasiləsiz olaraq onun qazanılmasına, əldə olunmasına, toplanmasına psixoloji hazırlıqdır. Yəni insanın öz bilik və bacarıqlarını daim yeniləşdirməsi, yeni tələblər əsasında təkmilləşdirməsi, yeni məzmunla zənginləşdirməsi, daim özünütəhsil, özünütərbiyə, özünüinkişafla məşğul olmasıdır. Təcrübə və araşdırmalar göstərir ki,təhsil paradiqmaları müasir pedaqogikanın başlıca obyekti rolunda çıxış edir. Bu paradiqmalar cəmiyyətin mədəni dəyərləri əsasında təlim və tərbiyə proseslərini birləşdirir.

Paradiqmaların müxtəlifliyi təhsilin əsas məqsədinə fərqli yanaşmalarla sıx bağlıdır. Bu yanaşmaları aşağıdakı istiqamətlər üzrə göstərmək olar:

1. Dəyəryönlü (aksioloji) yanaşma. Bu yanaşmaya görə təhsil və onun nəticəsində yaranan mədəniyyət, yəni yeni mədəniyyətin yaranması və zənginləşdirilməsi insan həyatının mənası kimi qəbul edilir.

2. Fəaliyyət yanaşması. Bu yanaşma maddi və mənəvi dəyərlərin yaradılması ilə bağlı fəaliyyət üsullarının tətbiqini özündə ehtiva edir.

3. Şəxsiyyətyönlü yanaşma. Mədəniyyət şəxsiyyətin müəyyən olunan tiplərində özünü göstərir. Mədəniyyətə müxtəlif yanaşmalar, eyni zamanda təhsildə də müxtəlif paradiqmaların yaranmasına gətirib çıxarmışdır.

Təcrübə və araşdırmalar göstərir ki, hər bir paradiqma təhsil qarşısında özünəməxsus suallar qoyur. Bu suallar əsasən aşağıdakı məsələlərlə bağlı olur:

1) tədris müəssisəsinin sosial institut kimi funksiyası; 2) səmərəli təhsil sistemi; 3) tədris müəssisəsinin prioritetləri haqqında məsələ; 4) təhsilin məqsədinin ictimai əhəmiyyətliliyi; 5) təhsilin məzmun məsələsi (hansı bilik,

bacarıq və vərdişlər dəyərlərdir? Bu, kimin üçün dəyərlidir?)

### Təhsilin məzmununun kulturoloji paradiqmaya əsaslanması

Bəzən elmi ədəbiyyatda təhsil paradiqmaları sırasında kulturoloji paradiqma ayrıca göstərilir [Симоненко В.Д., Ретивых М.В.. – Брянск, 2003; Бим-Бад, Б. М., Москва, 2007].

Bu baxımdan təhsil sosio-mədəni fenomen kimi qəbul olunur. Bu isə eyni zamanda təhsilin mədəniyyətəuyğunluğu prinsipinin vacib prinsip kimi mühüm əhəmiyyət daşıdığını söyləməyə əsas verir. Təsadüfi deyil ki, müasir dövrdə mədəniyyət dedikdə təhsil, elm, incəsənət, dövlətçilik və mənəviyyat sahəsində inkişaf məsələləri də başa düşülür. Bu gün təhsil və mədəniyyətin qarşılıqlı əlaqələri problemi xüsusi tədqiqatların predmeti olmaqla təhsilin kulturoloji paradiqmasının inkişafına xidmət edir.[4]

M.M.Baxtin və V.S.Bibler təhsil və mədəniyyətin dialoq konsepsiyasını işləyib hazırlamışlar. Bu konsepsiyaya görə müxtəlif mədəniyyətli insanların dialoqu mədəniyyətlərin və təhsilin didaktik vəhdətdə mövcudluğunun əsas formasıdır. Bu isə təhsilin mədəniyyətyönlü əsas dəyərlərinin müəyyən olunması imkanlarını yaradır. Belə bir nəticəyə gəlmək olur ki, insan mədəniyyətin, xüsusi həyat və fərdi inkişaf subyektidir. Təhsil isə ətraf mühitin mədəni inkişafının təminatçısıdır. Yaradıcılıq və dialoq mədəni təhsil mühitində insanın mövcudluğu və özünüinkişafının üsullarıdır. Bu fikirlər əslində şəxsiyyətyönlü təhsilin kulturoloji konsepsiya üzərində təşkili problemini də diqqətə çatdırır.

Kulturoloji konsepsiyanın mahiyyəti aşağıdakı əsas müddəalarla əsaslandırıla bilər:

1)müasir dövrdə mədəniyyətyönlülüyün, o cümlədən pedaqoji mədəniyyətin təhsil islahatının əsas prinsipi kimi qəbul olunması;

2) təhsil insanın mənəvi siması kimi; bu mənəvi simanın mədəni əxlaqi və mənəvi dəyərlərin mənimsənilməsi prosesində yaranması;

3) təhsilin obyekt və məqsədinin mədəni insan olması;

4) təhsilin mədəniyyətyönlü məzmununun formalaşdırılması zəruriliyi və təhsil müəssisələrində mədəni həyat norma və nümunələrinin yaradılması, təhsilin mədəniyyətə inteqrasiyası;

5) təhsilin milli və dünyəvi mədəniyyət kontekstində həyata keçirilməsi onun məzmununun humanistləşdirilməsini nəzərdə tutur: humanist təhsil, təlim-tərbiyə texnologiyalarının tətbiqi, təlim-tərbiyə müəssisələrində yaradıcı özünüreallaşdırma qabiliyyətinə malik şəxsiyyətlərin formalaşdırılması;

6) yaradıcılıq mədəniyyətin inkişafının əsasıdır, sağlam əməkdaşlıq münasibətlərinin formalaşdırılmasına xidmət edən kreativlik prinsipinin nəzərə alınmasının zəruriliyi;

7) təhsil həm də mədəniyyətlə, insanların fikir, ideya, düşüncələri ilə daha da zənginləşməlidir.

Kulturoloji yanaşma şəxsiyyətyönlü təhsilin əsas layihələndirmə metodu kimi qəbul olunur. Kulturoloji yanaşmaya görə kiçik yaşlarından başlayaraq insana subyekt kimi baxılır, eyni zamanda onun mədəni özünüinkişafa qabil olduğu mühüm bir komponent kimi qəbul edilir, müəllim isə təhsilalanla mədəniyyət arasında vasitəçi hesab olunur. Kulturoloji yanaşmanın digər bir komponenti budur ki, təhsil mədəni prosesdir. Onun hərəkətverici qüvvəsi təhsil işçilərinin dialoq və əməkdaşlığı, şəxsi fikirləridir. Məktəbə münasibətin bütövlükdə mədəni təhsil mühitinə münasibət xarakteri daşıması da kulturoloji yanaşma komponenti kimi mühüm əhəmiyyət kəsb edir. Məhz belə münasibət, belə yanaşma əsasında mədəni həyat nümunələri yaradılır, mədəni insan tərbiyəsi həyata keçirilir.

---

[4] www.culturedialogue.org/drupal/ru/node/361; www.culturedialogue.org/drupal/ru; www.teoriapractica.ru/rus/files/arhiv_zhurnala/2013/1/pedagogika/chumakolenko.pdf

Kulturoloji yanaşmaya görə təhsilin mərkəzində azad, fərdi keyfiyyətləri ilə fərqlənən, digər insan və mədəniyyətlərlə ünsiyyət və əməkdaşlıqda özünü reallaşdıra bilən, şəxsiyyətini təsdiq edən insan dayanır. Tarixi təcrübə də sübut edir ki, təhsil mədəniyyətin tərkib hissəsi olmaqla, həm də onu qoruyub saxlayır, inkişaf etdirir, insan vasitəsilə daim mədəniyyətin zənginləşməsinə ciddi təsir göstərir. Ona görə də təhsil, eyni zamanda bir sıra mədəni funksiyaları da yerinə yetirir. Bu funksiyalar aşağıdakılardır:

1. Humanitar funksiyalar. Buraya insanın ekoloji, cismən, fiziki və ruhi sağlamlığı, şəxsi azadlığı, fərdiliyi, mənəviliyinin qorunması və bərpası daxildir.

2. Mədəniyyətyaradıcı funksiyalar. Buraya təhsil vasitəsilə mədəniyyətin qorunması, ötürülməsi, yenidən bərpası və inkişafı daxildir.

3. Sosioloji funksiyalar. Buraya sosial təcrübənin mənimsənilməsi və bərpası daxildir.[5]

Mövcud təcrübə və tədqiqat göstərir ki, təhsilin məqsədi, vəzifələri və məzmununu əslində mədəniyyət müəyyənləşdirir. Yəni cəmiyyət bu gün insanı necə görmək istəyir? İnsan hansı dəyərlərin daşıyıcısı olmalıdır? Mədəni insan dedikdə nə başa düşülür? Mədəniyyətin inkişafı cəmiyyətə hansı töhfələri verir? Bu və ya digər sualların cavablandırılması bilavasitə təhsillə bağlıdır. Təhsilsiz mədəniyyət formalaşa bilməz. Bu baxımdan təhsil prosesinə kulturoloji yanaşma təhsilin məzmununu zənginləşdirməklə bəarabər, eyni zamanda mədəniyyəti yaradan, inkişaf etdirən insanın, şəxsiyyət-vətəndaşın formalaşmasına geniş imkanlar yaradır. Bu şəxsiyyətlər isə şübhəsiz ki, xalqı, milləti, dövləti düşünən, onu inkişaf etdirən insanlardır.

### Təhsilin yeni məzmununun formalaşdırılmasında islahatların imkanları

Qeyd etmək lazımdır ki, müasir dövrdə ölkəmizdə təhsilin məzmununun köklü surətdə dəyişməsi, yeni, milli məzmununun formalaşması Azərbaycan Respublikasının müstəqillik əldə etməsilə, XX yüzilliyin sonu, XXI yüzilliyin əvvəllərində təhsil sahəsində dövlət siyasətinin milli və bəşəri dəyərlər əsasında müəyyənləşdirilməsi ilə bilavasitə bağlıdır. Xüsusilə 1999-cu ildə ulu öndər Heydər Əliyevin təsdiq etdiyi «Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı»nın tətbiqi yeni məzmunun formalaşdırılması və davamlı olaraq təkmilləşdirilməsi üçün geniş imkanlar açdı [«Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı». Bakı, 1999]. XXI yüzilliyin əvvəllərində yeni təhsil proqramlarının-kurikulumun hazırlanması və tətbiqi ölkə təhsilinin məzmununun nəzəri və praktik baxımdan yenilənməsində mühüm rol oynadı. Ənənəvi yanaşmadan fərqli olaraq müasir yanaşmada təhsilin məzmunu bir neçə istiqamətdə yeniləndi. Hər şeydən əvvəl, təhsilin məzmununun şəxsiyyətyönlü olması mühüm şərtlərdən biri kimi qəbul olundu. Digər tərəfdən məqsədin nəticə şəklində ifadə olunması, tədris ili ərzində fənlər, siniflər üzrə gözlənilən nəticənin dəqiq ifadə edilməsi məzmun standartlarının formalaşdırılmasının mühüm tələbi kimi nəzərə alındı. Yeni yanaşmaya görə təhsilin məzmunu standartlarda əksini tapdı.

XXI yüzilliyin əvvəllərində hazırlanan yeni təhsil proqramları (kurikulum) Azərbaycan təhsilinin inkişafında həqiqətən mühüm rol oynadı. Lakin zaman keçdikcə, cəmiyyət inkişaf etdikcə hər bir konseptual sənədin dəyişməsi, məzmunun yeniləşməsi, təkmilləşməsi, yeni texnologiyaların tətbiqi vacibdir. Dünya ölkələrinin təcrübəsi də göstərir ki, müasir dövrdə rəqabətqabiliyyətli şəxsiyyətlərin formalaşdırılması, cəmiyyət üçün peşəkar, səriştəli kadrlar hazırlamaq üçün təhsilin məzmununda ən vacib kompetensiyalar, səriştələr nəzərə alınmalı və təhsil fəaliyyəti məhz bu əsaslar üzərində həyata keçirilməlidir. Bu baxımdan səriştə əsaslı təhsilin məzmunu problemi həm dövlət sənədlərində, o cümlədən,

[5] www.culturedialogue.org/drupal/ru/node/361

«Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası»nda) «Azərbaycan Respublikasının Milli İqtisadiyyat Perspektivi üzrə Strateji Yol Xəritəsi»ndə əksini tapmış, həm də tədqiqatçılar üçün araşdırma problemi olmuşdur.[6]

Tədqiqatlar göstərir ki, səriştə anlayışı nəticə etibarilə həyati bacarıqları ifadə edir.[7] Yəni səmərəli öyrənmə üçün vacib olan həyati bacarıqlar və bu bacarıqları tətbiq etmək qabiliyyəti səriştələrdir. Ayrı-ayrı ölkələrdə təhsilalanların səriştəliliyi probleminə yanaşmada ümumi xüsusiyyətlər olsa da, fərqli cəhətlər də mövcuddur. Bu, səriştələrin həm ardıcıl sıralanması, həm onun məzmunu, həm də sayı ilə bağlıdır.

Qeyd etmək lazımdır ki, «Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu»nda səriştələr ümumi şəkildə, təhsilin məqsədinin şərhində verilmişdir. Bu baxımdan müddəalardan birinə diqqət yetirək:

«Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq qalan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət» [Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı, 2009].

Bu müddəadan göründüyü kimi formalaşdırılması nəzərdə tutulan səriştələr təhsilin məqsədində sadalanmışdır.

Beynəlxalq təcrübədə isə məqsəd və səriştələr ayrı-ayrılıqda verilir. Əvvəlcə bəzi ölkələrdə ümumi təhsilin məqsədinin necə ifadə olunmasına diqqəti yönəldək. Məsələn, Yeni Zelandiyada təhsil sisteminin məqsədi gənc nəslin özünə əmin, aktiv iştirakçı, həyat boyu öyrənənlər olmasına çalışmaqdır. Avstraliyada isə təhsilin məqsədi «təhsil sistemində ədalət, bərabərlik və mükəmməlliyi təmin etmək, gənc nəslin (avstraliyalıların) uğurlu öyrənənlər, özünə inamlı və yaradıcı fərdlər, aktiv və məlumatlı vətəndaşlar olmasını təmin etmək» kimi qəbul olunmuşdur [Xarici ölkələrin Milli Kurikulum Çərçivələrinin araşdırılması və Azərbaycan Respublikası Milli Kurikulum Çərçivəsinin hazırlanması üçün təlimat. Bakı, 2018].

Müxtəlif ölkələrdə təhsilalanlarda formalaşdırılması nəzərdə tutulan səriştələrin də fərqliliyinə diqqət yetirək. Məsələn, Cənubi Koreyada Milli Kurikulum Çərçivəsi üzrə formalaşdırılan səriştələr bunlardır:

1) şəxsiyyətin hərtərəfliliyi; 2) yaradıcı olmaq,bilik və bacarıqlarını tətbiq edə bilmək; 3) Koreya mədəniyyəti və mirasına hörmət etmək; 4) karyera qura bilmək; 5) fəal vətəndaş olmaq.

Sinqapurda isə 4 mühüm səriştənin adı çəkilir: 1) özünə güvənmək; 2) müstəqil öyrənə bilmək; 3) aktiv töhfə verə bilmək; 4) qayğıkeş vətəndaş olmaq [Xarici ölkələrin Milli Kurikulum Çərçivələrinin araşdırılması və Azərbaycan Respublikası Milli Kurikulum Çərçivəsinin hazırlanması üçün təlimat. Bakı, 2018].

Nümunədən göründüyü kimi, səriştələr sayca çox deyil. Lakin bu səriştələrin hər biri geniş məna ifadə edir və onların hər birini müxtəlif hissələrə bölərək sayını artırmaq mümkündür. Bu baxımdan Azərbaycan Respublikası Milli Kurikulum Çərçivəsində əks olunması təklif olunan səriştələr maraq doğurur:

1) Vətənə, dövlətə, xalqa, millətə məhəbbət və sədaqət; 2) milli iftixar hissi; 3) ana dilinə, xalqının mədəni irsinə, tarix və mədəniyyətinə, mili mənəvi dəyərlərinə, bəşəri dəyərlərə hörmət; 4) əks qüvvələrə qarşı barışmazlıq; 5) nitq fəaliyyəti; 6) əməkdaşlıq və birgə fəaliyyət; 7) xarici dil bacarıqları; 8) azadfikirlilik və fərqli düşüncə tərzi; 9) təşəbbüskarlıq; 10) müstəqil öyrənmə; 11) hüquqlara hörmət; 12) analiz-sintez; 13) məntiqi

[6] Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. https://www.president.az/articles/9779, Azərbaycan Respublikasının Milli İqtisadiyyat Perspektivi üzrə Strateji Yol Xəritəsi. https://azertag.az/store/files/untitled%20folder/_STRATEJI%20YOL%20XERITESI_.pdf

[7] Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. https://www.president.az/articles/9779

və tənqidi yanaşma tərzi; 14) tədqiqatçılıq; 15) riyazi biliklərin həyati problemlərin həllinə təminat yaratması; 16) iqtisadi təfəkkürün formalaşdırılması; 17) informasiya mədəniyyətinin formalaşdırılması; 18) müxtəlif mədəniyyətlərə həssas və dözümlü münasibət; 19) estetik dünyagörüşünün, hissi-emosional bacarıqların formalaşdırılması; 20) harmonik inkişaf və sağlamlığın mühafizəsi [Xarici ölkələrin Milli Kurikulum Çərçivələrinin araşdırılması və Azərbaycan Respublikası Milli Kurikulum Çərçivəsinin hazırlanması üçün təlimat. Bakı, 2018].

Əlbəttə, burada da ümumiləşdirmə aparmaq, qeyd olunan səriştələri müxtəlif parametrlər üzrə qruplaşdırmaq mümkündür. Lakin bu səriştələrin hər biri bu gün təhsil alan Azərbaycan şagirdləri, yeniyetmə gənclər üçün olduqca vacibdir.

Səriştə əsaslı təhsilin məzmunu dəyəryönlü olmalıdır. Yuxarıda qeyd olunan səriştələrdə bu və ya digər dəyərlər əksini tapmışdır. «Azərbaycan Respublikası Milli Kurikulum Çərçivəsinin hazırlanması üçün təlimat»da dəyərlər aşağıdakı şəkildə göstərilmişdir:

1) vətəndaş təfəkkürü – vətənə, dövlətə, xalqa, millətə məhəbbət və sədaqət, milli iftixar hissi, ana dilinə, xalqının mədəni irsinə, tarix və mədəniyyətinə, milli mənəvi dəyərlərinə, bəşəri dəyərlərə hörmət, əks qüvvələrə qarşı barışmazlıq;

2) müstəqillik və demokratiklik-azadfikirlilik və fərqli düşüncə tərzi, təşəbbüskarlıq, müstəqil öyrənmə, hüquqlara hörmət;

3) kreativlik-analiz-sintez, məntiqi və tənqidi yanaşma tərzi, tədqiqatçılıq;

4) riyazi və iqtisadi savadlılıq. İKT savadlılığı-riyazi biliklərin həyati problemlərin həllinə təminat yaratması, iqtisadi təfəkkürün formalaşdırılması, informasiya mədəniyyətinin təşəkkülü;

5) tolerantlıq-müxtəlif mədəniyyətlərə həssas və dözümlü münasibət;

6) estetik və fiziki mədəniyyət- estetik dünyagörüşünün, hissi-emosional bacarıqların formalaşdırılması, harmonik inkişaf və sağlamlığın mühafizəsi [Xarici ölkələrin Milli Kurikulum Çərçivələrinin araşdırılması və Azərbaycan Respublikası Milli Kurikulum Çərçivəsinin hazırlanması üçün təlimat. Bakı, 2018].

Göründüyü kimi, qeyd olunan dəyərlərin təklif olunan səriştələrlə bilavasitə, birbaşa bağlılığı vardır. Bu dəyərlər əslində qazanılacaq səriştələrin mahiyyətində özünü göstərir. Beləliklə, səriştə əsaslı təhsilin məzmunu həm də dəyəryönlü səciyyə daşıyır. Sadaladığımız dəyərlər sırasında humanistlik, yaxud humanist dəyərlər qeyd oluna bilər. Çünki təhsilin məzmununun ana xəttində təhsilalanlara humanist fikir və ideyaların aşılanması, onlarda humanist düşüncə sisteminin formalaşdırılması dayanmalıdır. Humanist düşüncə isə humanist dəyərlər əsasında, bu dəyərlərə xüsusi əhəmiyyət verilməsi, onun şəxsiyyətin yetişdirilməsinə təsiri nəticəsində formalaşır.

Səriştə əsaslı təhsilin məzmununda əksini tapan dəyərlər sistemində tədqiqatçılıq komponenti mühüm yer tutur. Tədqiqatçılıq özlüyündə bir səriştə hesab olunmaqla, həm də kreativlik bacarıqlarının reallaşmasından irəli gələn bir dəyərdir. Yəni tədqiqat yaradıcılıqdan doğur, yaradıcılıq isə tədqiqatçılığı formalaşdırır. Müasir təhsilin inkişafı yaradıcı düşünən, yeni təfəkkür mədəniyyətinə yiyələnən şəxsiyyətin formalaşdırılması ilə bağlı olduğu qədər, şəxsiyyətin formalaşdırılması da təlim-tərbiyə prosesində təhsilalanlarda tədqiqatçılığın formalaşdırılması ilə əlaqəlidir.

Tədqiqatçılıq fəaliyyəti təhsilalanlarda özünəinam, müstəqil düşüncə tərzi, hadisə və proseslərin səbəb-nəticə əlaqələrini müəyyənləşdirə bilmək, bu və ya digər məsələlərə tənqidi yanaşma, mürəkkəb şəraitdən baş çıxarmaq, özünün şəxsi mövqeyini əsaslandıra bilmək və s. kimi zəruri səriştələri formalaşdırır. Tədris olunan fənnin adından, məzmunundan asılı olmayaraq hər bir mövzunun öyrənilməsində, yaxud dərsdənkənar (auditoriyadankənar) tədbirlərdə təhsilalanları tədqiqatçılığa yönəltmək vacibdir. Yeni təhsil proqramları, fənn kurikulumları standartların məqsədəuyğun

mənimsənilməsi baxımından təhsilalanların tədqiqatçılıq fəaliyyətinin təşkili üçün geniş imkanlar açır.

Təcrübə göstərir ki, tədqiqat nəticəsində qazanılan bilik daha möhkəm və əsaslandırılmış olur. Bu biliklər sadəcə nəzəri bilik kimi qalmır. Şagird, yaxud tələbə əldə etdiyi bilikləri tətbiq etməyi, digər hadisə və proseslərlə bağlı problemin araşdırılmasında ondan istifadə etməyi, ona əsaslanmağı bacarır. Beləliklə, məntiqi və tənqidi təfəkkürü ilə yanaşı yaradıcı təfəkkürü də inkişaf edir.

## Nəticə

Təcrübə və araşdırmalardan göründüyü kimi, müasir dövrdə səriştə əsaslı təhsilin məzmununun formalaşdırılmasında təhsil paradiqmalarının mahiyyətindən doğan ideya və müddəaların tətbiqi mühüm əhəmiyyət kəsb edir. Beləliklə, səriştə əsaslı təhsilin məzmunu həm də dəyəryönlü səciyyə daşıyır. Bu dəyərlər sırasında humanistlik, yaxud humanist dəyərlər mühüm əhəmiyyət kəsb edir. Çünki təhsilin başlıca məzmun xəttində öyrənənlərə humanist baxışlar sisteminin aşılanması, onlarda humanist vətəndaş mövqeyinin inkişaf etdirilməsi zəruridir. Humanist baxışlar sistemi isə təbii ki, ilk növbədə, humanist dəyərlər əsasında formalaşır. Bu baxımdan qloballaşan dünyada şəxsiyyətyönlülük, mədəniyyətyönlülük, humanistlik kimi başlıca paradiqmaların təhsilin məzmununda əks olunmasının yetkin şəxsiyyətin formalaşdırılmasına, cəmiyyətin inkişafına təsir gücü çox böyükdür.

## İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasının Milli İqtisadiyyat Perspektivi üzrə Strateji Yol Xəritəsi – https://azertag.az/store/files/untitled%20folder/_STRATEJI%20YOL%20XERITESI_.pdf.
2. Azərbaycan məktəbi jurnalı (Azerbaijan Journal of Educational Studies). (2018), Sayı 683, №2, Bakı, CBC PP.
3. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. https://www.president.az/articles/9779.
4. Xarici ölkələrin Milli Kurikulum Çərçivələrinin araşdırılması və Azərbaycan Respublikası Milli Kurikulum Çərçivəsinin hazırlanması üçün təlimat (2018). Bakı, ARTİ, 25 s.
5. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. (2009) Təhsil xəbərləri, №6, s.18-19 – http:// www.edu.gov.az/az/page/72/302.
6. Воронин А.С. (2006) Словаръ терминoм по общей и социалъной педагогике. Екатеринбург. ГОУ ВПО УГТУ- УПИ – https:// www.social_pedagogy.academic.ru/463/%D0%9F%.
7. Арасланова А. А. (2010) Кризис классического образования в эпоху смены педагогических парадигм // Вестник Челябинского государственного педагогического университет. №3. с.14 – 23.
8. Библер В.С.; Бахтин М. М. (1991) Или поэтика культуры. (На путях к гуманитарному разуму) Москва, 170 с. Диалог культур XXI ВЕК – http://www.culturedialogue.org/drupal/ru/node/361.
9. Библер В.С.Культура и образование (размышление в семи тезисах). Диалог культур XXI ВЕК – http://www.culturedialogue.org /drupal/ru.
10. Бим-Бад Б.М. (2002) Педагогический энсиклопедический словаръ. – Москва, с.185.
11. Бим-Бад Б.М. (2007) К вопросу о культуросообразности образования // Культурная парадигма, Москва. Народное образование, с. 11–14.
12. Кукушин В.С. Общие основы педагогики. Парадигмы образования https://eusi.ru/lib/kukushin_obsie/2.php.

13. Общая и профессиональная педагогика: Учебное пособие для студентов, обучающихся по специальности «Профессиональное обучение»: В 2-х книгах / Под ред. В.Д. Симоненко, М.В. Ретивых. – Брянск, Изд-во Брянского государственного университета, Кн.1,174 с.
14. Павелко Н.Н. (2004) Культурологическая парадигма теории профессионально-педагогической культуры преподавателя высшей школы. Автореферат диссертации по культурологии, специальность ВАК РФ, №24.00.01.Краснодар. – http:// www .cheloveknauka.com/ kulturologicheskaya-paradigma-teorii-professionalno-pedagogicheskoy-kultury-prepodavatelya-vysshey-shkoly#ixzz5Ef2uidOa.
15. Философский энсиклопедический словаръ (2003) Москва, ИНФРА-М, 576 с. – http://www.rubricon.com/fes_1.asp.
16. Чумаколенко Н.А. Теория «диалога культур» М.М. Бахтина – В.С. Библера и развитие медиаобразования в художественно-эстетическом образовании и воспитании школьников – http://www.teoriapractica.ru/rus/files/arhiv_zhurnala/2013/1/pedagogika/chumakolenko.pdf.
17. Шмырова Н.А., Губанова М.И., Крецан З.В. (2002) Педагогические системы: научные основы, управление, перспективы развития. Кемерево, с.59.